# DTX-nin "Bilgəh" istirahət mərkəzində Milli Qurtuluş Günü qeyd olunub

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) "Bilgəh" istirahət mərkəzində 15 İyun Milli Qurtuluş Gününün 30-cu ildönümünə həsr edilmiş tədbir təşkil olunub.

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib. Sonra "Bilgəh" istirahət mərkəzinin tarixini əks etdirən foto və videomateriallar, o cümlədən mərkəzin 1953-cü ildə fəaliyyətə başlaması, Ulu Öndər Heydər Əliyevin təhlükəsizlik orqanının rəhbəri olduğu zaman birbaşa onun təşəbbüsü ilə 1968-ci ildə həmin mərkəzin keçmiş SSRİ Zaqafqaziya sərhəd dairəsinin balansından çıxarılaraq Azərbaycan təhlükəsizlik orqanına verilməsi, bu il istirahət mərkəzinin yaradılmasının 70 illiyinin qeyd olunması iştirakçıların diqqətinə çatdırılıb. Bu mərkəz ömrünün 25 ilini təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş dahi rəhbər Heydər Əliyevin sevdiyi məkan olub. Ulu Öndər təhlükəsizlik orqanlarında çalışarkən yay aylarında ailə üzvləri ilə birlikdə istirahətini burada keçirib.

Qeyd edilib ki, hazırda genişmiqyaslı yenidənqurma işlərinin getdiyi mərkəzdə əməkdaşların və onların ailə üzvlərinin istirahətlərinin və asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb. Bu istiqamətdə lazımi işlər bundan sonra da davamlı şəkildə həyata keçiriləcək.

Tədbir mədəni proqramla davam etdirilib.

Azərbaycan. - 2023.- 17 iyun.- S.6.